**“Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə**

**Azərbaycan RESPUBLİKASININ Qanunu**

Azərbaycan Respublikası Konstitusiyasının 84-cü maddəsinin II hissəsinə uyğun olaraq Azərbaycan Respublikası prezidentinin 2000-ci il 6 iyul tarixli fərmanı ilə Azərbaycan Respublikasının Milli Məclisinə seçkilər 2000-ci il noyabrın 5-nə təyin edilmişdir.

2000-ci il iyunun 9-da Azərbaycan Respublikasının Milli Məclisi «Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası haqqında» Azərbaycan Respublikasının Qanununa dəyişikliklər və əlavələr edilməsi barədə» Azərbaycan Respublikasının Qanununu qəbul etmişdir. Bu qanuna əsasən Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının yaradılması qaydası köklü surətdə dəyişdirilmiş, onun 18 üzvündən 6 nəfərin vahid çoxmandatlı seçki dairəsi üzrə seçilmiş deputatları Milli Məclisdə çoxluq təşkil edən və onların namizədliklərini təqdim edən siyasi partiyanı, 6 nəfərin vahid çoxmandatlı seçki dairəsi üzrə seçilmiş deputatları Milli Məclisdə azlıq təşkil edən və onların namizədliklərini təqdim edən siyasi partiyaları, 6 nəfərin isə heç bir siyasi partiyaya mənsub olmayan və onların namizədliklərini təqdim edən deputatları təmsil etməsi nəzərdə tutulmuşdur. Qanunda bu da müəyyənləşdirilmişdir ki, heç bir siyasi partiyaya mənsub olmayan deputatları təmsil edən müstəqil hüquqşünaslardan ikisinin namizədlikləri maraqlı tərəflərlə — bir namizəd vahid çoxmandatlı seçki dairəsi üzrə seçilmiş deputatları Milli Məclisdə çoxluq təşkil edən siyasi partiyanın nümayəndələri ilə, digər namizəd isə vahid çoxmandatlı seçki dairəsi üzrə seçilmiş deputatları Milli Məclisdə azlıq təşkil edən siyasi partiyaların nümayəndələri ilə razılaşdırılmalıdır. Eyni zamanda Mərkəzi Seçki Komissiyasının iclaslarının səlahiyyətli olması üçün onun üzvlərinin azı 2/3 hissəsi, yəni 12 üzvü iclasda iştirak etməlidir. Qanuna görə Mərkəzi Seçki Komissiyası dairə seçki komissiyalarını da özünün təşkiledilmə prinsipinə uyğun olaraq yaratmalıdır.

Qanun ölkə ictimaiyyəti və beynəlxalq təşkilatlar tərəfindən yüksək qiymətləndirilmişdir. ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosunun rəsmi nümayəndələri tərəfindən bəyənilmiş, Milli Məclisdə təmsil olunan əsas siyasi partiyaların və müstəqil deputatların təmsilçiliyi və razılaşdırılma prinsipləri əsasında yaradılacaq Mərkəzi Seçki Komissiyasının fəaliyyətə başlamasını ölkə ictimaiyyəti və beynəlxalq müşahidəçilər səbirsizliklə gözləyirdilər.

2000-ci il iyulun 18-də Azərbaycan Respublikasının Milli Məclisi Mərkəzi Seçki Komissiyasının 9 üzvünü, Azərbaycan Respublikasının Prezidenti isə 8 üzvünü təyin etmişdilər. Həlledici səs hüququna malik olan 17 üzvdən ibarət

Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərin hazırlanması və keçirilməsi üçün işə başlaya bilərdi.

Təəssüf ki, hadisələrin sonrakı gedişi siyasi mübarizənin hamılıqla qəbul edilmiş sivil üsullarından istifadə etməyə qadir olmayan, ölkədə ardıcıl surətdə və qətiyyətlə keçirilən demokratikləşdirmə proseslərindən sui-istifadə etməyə çalışan pozucu qüvvələrin öz ambisiyalarına nail olmaq üçün hər cür vasitələrə əl atmağa hazır olduqlarını nümayiş etdirmişdir.

«Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası haqqında» Azərbaycan Respublikası Qanununun icrası gedişində heç bir siyasi partiyaya mənsub olmayan deputatların təqdim etdiyi və razılaşdırmalı olduğu 2 müstəqil hüquqşünasdan birinin — İlham Məmmədovun təyin olunmasına Yeni Azərbaycan Partiyasının razılığı alınmış, digərinin —Fəxrəddin Rzayevin təyin olunmasına isə Azərbaycan Milli İstiqlal Partiyası və Azərbaycan Xalq Cəbhəsi Partiyası razılıq verməmişlər.

2000-ci il iyulun 19-da Milli Məclisin heç bir siyasi partiyaya mənsub olmayan deputatları Azərbaycan Milli İstiqlal Partiyasına və Azərbaycan Xalq Cəbhəsi Partiyasına özlərinin ikinci namizədini — müstəqil hüquqşünas Dürdanə Məmmədovanı təqdim etmişlər. Lakin Azərbaycan Milli İstiqlal Partiyası və Azərbaycan Xalq Cəbhəsi Partiyası D.Məmmədovanın Mərkəzi Seçki Komissiyasının üzvü təyin olunmasına heç bir dəlil gətirmədən razılıq verməmişlər.

2000-ci il iyulun 20-də Milli Məclisin heç bir siyasi partiyaya mənsub olmayan deputatları Azərbaycan Milli İstiqlal Partiyasına və Azərbaycan Xalq Cəbhəsi Partiyasına üçüncü namizədi — müstəqil hüquqşünas Saqi Məmmədovu təqdim etmişlər. Bu dəfə də heç bir səbəb göstərmədən Azərbaycan Milli İstiqlal Partiyası və Azərbaycan Xalq Cəbhəsi Partiyası S.Məmmədovun Mərkəzi Seçki Komissiyasının üzvü təyin olunmasına razılıq verməmişlər.

Azərbaycan Milli İstiqlal Partiyasının və Azərbaycan Xalq Cəbhəsi Partiyasının Mərkəzi Seçki Komissiyasının sonuncu, 18-ci üzvünün təyin olunmasına razılıq verməməsinin əsl mahiyyəti həmin partiyaları Mərkəzi Seçki Komissiyasında təmsil edən 6 üzv Komissiyanın iclaslarına gəlmədikdə aşkara çıxmışdır. Məlum olmuşdur ki, Azərbaycan Milli İstiqlal Partiyası və Azərbaycan Xalq Cəbhəsi Partiyası təxribat xarakterli bu addımları atmaqla Mərkəzi Seçki Komissiyasının fəaliyyətə başlamasına yol verməmək məqsədi güdürmüşlər. Məhz bu səbəblərdən Mərkəzi Seçki Komissiyasının 2000-ci il iyulun 18-nə, 19-na və 20-nə təyin edilmiş iclasları yetərsay olmadığına görə baş tutmamışdır.

Beləliklə, heç bir şübhə qalmamışdır ki, Azərbaycan Milli İstiqlal Partiyası, Azərbaycan Xalq Cəbhəsi Partiyası və onları dəstəkləyən başqa müxalifət qüvvələri Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına zidd mövqe tutaraq,

2000-ci il noyabrın 5-də keçiriləcək parlament seçkilərinin pozulmasına nail olmaq istəyirlər.

Mərkəzi Seçki Komissiyasında Azərbaycan Milli İstiqlal Partiyasını və Azərbaycan Xalq Cəbhəsi Partiyasını təmsil edən şəxslər öz vətəndaşlıq borclarını yerinə yetirməyərək, «Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası haqqında» Azərbaycan Respublikası Qanununun 4-cü maddəsinin birinci hissəsinin tələblərini kobudcasına pozaraq, Mərkəzi Seçki Komissiyasının yeni tərkibinin formalaşmasını və səlahiyyətlərini həyata keçirməyə başlamasını, nəticə etibarı ilə «Azərbaycan Respublikasının Milli Məclisinə seçkilər haqqında» Azərbaycan Respublikası Qanununun icrasını qeyri-mümkün etmişlər.

Yaranmış vəziyyətdən çıxış yolu tapmaq məqsədi ilə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının iclasında iştirak etmək üçün toplanmış 11 nəfər Komissiya üzvü Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab Heydər Əliyevə, Azərbaycan Respublikası Milli Məclisinin sədri cənab Murtuz Ələsgərova, ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosunun direktoru səfir Jerar Ştudmana bir neçə məktub göndərmiş, şifahi müraciətlər etmiş və Mərkəzi Seçki Komissiyasının fəaliyyətinə normal şərait yaradılmasını xahiş etmişlər.

Azərbaycan Respublikasını Milli Məclisi

Azərbaycan dövlətçiliyinin gələcək taleyi üçün məsuliyyətini dərk edərək,

yaranmış vəziyyətin dözülməzliyini və doğura biləcəyi mənfi nəticələri nəzərə alaraq,

Azərbaycan Respublikası Konstitusiyasının və «Azərbaycan Respublikasının Milli Məclisinə seçkilər haqqında» Azərbaycan Respublikası Qanununun pozulmasına yol verməmək və ölkəmizdə parlament seçkilərinin vaxtında keçirilməsini təmin etmək məqsədi ilə,

Azərbaycanda demokratiyanın və vətəndaş cəmiyyətinin inkişafı, Azərbaycan Respublikasının Milli Məclisinə azad, ədalətli və demokratik seçkilər keçirilməsi naminə

qərara alır:

1. «Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası haqqında» Azərbaycan Respublikası Qanununun 2-ci maddəsinin birinci hissəsində «2

müstəqil hüquqşünasın namizədlikləri maraqlı tərəflərlə razılaşdırılır: bir namizəd vahid çoxmandatlı seçki dairəsi üzrə seçilmiş deputatları Milli Məclisdə çoxluq təşkil edən siyasi partiyanın nümayəndələri ilə, digər namizəd isə vahid çoxmandatlı seçki dairəsi üzrə seçilmiş deputatları Milli Məclisdə azlıq təşkil edən siyasi partiyaların nümayəndələri ilə razılaşdırılır» cümləsi çıxarılsın.

2. İzah edilsin ki, «Normativ hüquqi aktlar haqqında» Azərbaycan Respublikası Qanununun 44.1.2.-ci maddəsinin tələblərinə görə «Azərbaycan Respublikasının Milli Məclisinə seçkilər haqqında» Azərbaycan Respublikası Qanununun 19-cu maddəsinin 2-ci bəndinin dördüncü cümləsi hüquqi qüvvəsini itirmiş hesab edilsin.

3. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Prezidenti Heydər ƏLİYEV**

**Bakı şəhəri, 21 iyul 2000-ci il**

**№ 929-IQD**

**Azərbaycan Respublikasının Qanunvericilik toplusu $g 2000.- 31 iyul, № 7.- S. 2875-2877.**